Birləşmiş Millətlər Təşkilatı CRPD/C/GC/1

Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya

Nəşr tarixi: 19.05.2014
Əsli: İngilis dilində

*qeyri-rəsmi tərcümə*

**Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Komitə**
**XI sessiya**
31 mart – 11 aprel 2014

# 1 saylı ümumi şərh (2014)

**12-ci maddə: Qanun qarşısında bərabərlik**

## 1. Giriş

1. Qanun qarşısında bərabərlik insan hüquqlarının müdafiəsi üçün əsas ümumi prinsipdir və digər insan hüquqlarının həyata keçirilməsi üçün zəruridir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktında qanun qarşısında bərabərlik hüququna xüsusi olaraq təminat verilir. Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyanın 12-ci maddəsi bu mülki hüququn məzmununu daha geniş təsvir edir və əlilliyi olan şəxslərin ənənəvi olaraq bu hüquqdan məhrum edildiyi sahələrə diqqəti yönəldir. 12-ci maddədə əlilliyi olan şəxslər üçün əlavə hüquqlar nəzərdə tutulmur; o, sadəcə olaraq digərləri ilə bərabər səviyyədə əlilliyi olan şəxslərin qanun qarşısında bərabərlik hüququnu təmin etmək üçün iştirakçı dövlətlərin nəzərə almalı olduğu xüsusi amilləri qeyd edir.

2. Bu maddənin əhəmiyyətini nəzərə alaraq, Komitə hüquq qabiliyyətinə dair müzakirələr üçün forumların keçirilməsinə şərait yaratmışdır. Ekspertlər, iştirakçı dövlətlər, əlilliyi olan şəxslərin təşkilatları, qeyri-hökumət təşkilatları, müqavilələrə nəzarət orqanları, milli insan hüquqları institutları və Birləşmiş Millətlər Təşkilatının agentlikləri tərəfindən 12-ci maddənin müddəaları üzrə faydalı mübadilədən sonra Komitə bu sahədə ümumi şərh formasında əlavə təlimatlar təqdim etməyi zəruri hesab etdi.

3. İndiyədək nəzərdən keçirilən müxtəlif iştirakçı dövlətlərin ilkin hesabatlarını nəzərə alaraq, Komitə qeyd edir ki, Konvensiyanın 12-ci maddəsinə əsasən iştirakçı dövlətlərin öhdəliklərinin dəqiq həcmi ilə bağlı ümumi anlaşılmazlıq mövcuddur. Həqiqətən də, əlilliyin insan hüquqlarına əsaslanan modelində əvəzedici qərarların qəbulu sistemindən dəstəkləyici qərarların qəbulu sisteminə keçidin nəzərdə tutulduğu ümumiyyətlə başa

düşülməmişdir. Bu ümumi şərhin məqsədi 12-ci maddənin müxtəlif komponentlərindən irəli gələn ümumi öhdəlikləri təhlil etməkdir.

4. Bu ümumi şərh, Konvensiyanın 3-cü maddəsinə və ümumi prinsiplərinə əsaslanaraq 12-ci maddənin şərhini əks etdirir, yəni insan ləyaqətinə, şəxsi seçim etmək azadlığı və müstəqilliyi də daxil olmaqla şəxsi sərbəstliyinə hörmət; ayrı-seçkiliyə yol verilməməsi; cəmiyyətə tam və səmərəli cəlb olunma və daxil olma; əlilliyi olan şəxslərin xüsusiyyətlərinə hörmət olunması və onların insan müxtəlifliyinin komponenti və bəşəriyyətin bir hissəsi kimi qəbul olunması; imkanların bərabərliyi; müyəssərlik; kişi və qadın bərabərliyi və əlilliyi olan uşaqların inkişaf edən qabiliyyətinə hörmət və onların öz fərdiliyini saxlamaq hüquqlarına hörmət.

5. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt və Əlilliyi olan şəxslərin Hüquqları haqqında Konvensiya qanun qarşısında bərabərlik hüququnun "hər yerdə" tətbiq olunduğunu müəyyən edir. Başqa sözlə, beynəlxalq insan hüquqlarına əsasən, şəxs qanun qarşısında hüquq subyekti olaraq tanınması hüququndan məhrum edilə bilməz və ya bu hüquq heç bir halda məhdudlaşdırıla bilməz. Bərabərlik hüququ, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 4-cü maddəsinin 2-ci bəndi ilə təsbit edilmiş və hətta dövlətdə fövqəladə hallar zamanı bu hüququn pozulmasına imkan verilmir. Baxmayaraq ki, Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyasında qanun qarşısında bərabərlik hüququnun pozulması ilə əlaqədar qadağa müəyyən edilmir, Beynəlxalq Paktın bu müddəası adı çəkilən Konvensiyanın 4-cü maddəsinin 4-cü bəndinə uyğun olaraq belə müdafiəni təmin edir və onun müddəaları qüvvədə olan beynəlxalq hüququn müddəalarını pozmur.

6. Qanun qarşısında bərabərlik hüququ digər əsas beynəlxalq və regional insan hüquqları ilə bağlı müqavilələrində də öz əksini tapmışdır. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyanın 15-ci maddəsi qadınların qanun qarşısında bərabərliyinə təminat verir və qadınların kişilərlə bərabər hüquq qabiliyyətinin tanınması, o cümlədən müqavilələrin bağlanması, əmlakın idarə edilməsi və məhkəmə-hüquq sistemində hüquqlarını həyata keçirməsi üçün imkanların yaradılmasını tələb edir. İnsan və Xalqların Hüquqları üzrə Afrika Xartiyasının 3-cü maddəsi hər kəsin qanun qarşısında bərabər olduğunu və qanunla bərabər səviyyədə müdafiə olunmaq hüququnu təmin edir. Amerika İnsan Hüquqları üzrə Konvensiyanın 3-cü maddəsi hər kəsin qanun qarşısında bərabər olduğunu və hüquqi subyekt kimi tanınmaq hüququnu təsbit edir.

7. İştirakçı dövlətlər əlilliyi olan şəxslərin hüquq qabiliyyətinin digərləri ilə müqayisədə məhdudlaşdırılmaması üçün bütün sahələrdə qanunları hərtərəfli nəzərdən keçirməlidirlər. Tarixən əlilliyi olan şəxslər qəyyumluq, mühafizəkarlıq və məcburi müalicəyə imkan verən psixi sağlamlıq qanunları kimi əvəzedici qərar qəbuletmə sistemləri altında ayrı-seçkilik yolu ilə bir çox sahələrdə hüquq qabiliyyətini həyata keçirmək hüququndan məhrum edilmişdirlər. Əlilliyi olan şəxslərin digərləri ilə bərabər səviyyədə tam hüquq qabiliyyətinin bərpa olunmasını təmin etmək üçün bu təcrübələr ləğv edilməlidir.

8. Konvensiyanın 12-ci maddəsinə əsasən bütün əlilliyi olan şəxslər tam hüquq qabiliyyətinə malikdirlər. Tarix boyu bir çox qruplar, o cümlədən qadınlar (xüsusilə nikahdan sonra) və etnik azlıqlar qərəzli şəkildə hüquq qabiliyyətindən məhrum edilmişdir. Bununla belə, əlilliyi olan şəxslər bütün dünyanın hüquq sistemlərində hüquq qabiliyyətindən ən çox məhrum edilən qrup olaraq qalırlar. Qanun qarşısında bərabərlik hüququ o deməkdir ki, hüquq qabiliyyəti bəşər övladına xas olan universal mülkiyyətdir və bu əlilliyi olan şəxslər üçün digərləri ilə bərabər səviyyədə təmin edilməlidir. Fəaliyyət qabiliyyəti mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsi üçün zəruridir. Bu, əlilliyi olan şəxslərin sağlamlıq, təhsil və məşğulluq kimi vacib qərarların qəbulu zaman xüsusi əhəmiyyət kəsb edir. Əlilliyi olan şəxslərin hüquq qabiliyyətinin inkar edilməsi əksər hallarda onların bir çox əsas hüquqlarından, o cümlədən səsvermə, nikaha daxil olmaq və ailə qurmaq, reproduktiv, valideynlik, intim münasibətlərə və tibbi müalicəyə razılıq və azadlıq hüququndan məhrum edilməsinə səbəb olmuşdur.

9. Fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olanlar da daxil olmaqla, bütün əlilliyi olan şəxslərə hüquq qabiliyyətinin və əvəzedici qərarların qəbul edilməsinin məhrum edilməsi təsir edə bilər. Bununla belə, əqli və ya psixososial əlilliyi olan şəxslər əvəzedici qərar qəbuletmə sistemləri və hüquq qabiliyyətinin məhrum edilməsinin qeyri-mütənasib şəkildə təsirinə məruz qalmış və hələ də məruz qalırlar. Komitə bir daha təsdiq edir ki, şəxsin əlillik statusu və ya əlilliyinin olması (o cümlədən, fiziki və ya hissiyyat pozuntuları) heç vaxt 12-ci maddədə nəzərdə tutulmuş hüquq qabiliyyətindən və ya hər hansı hüquqlardan məhrum etmək üçün əsas olmamalıdır. Əlilliyi olan şəxslərin tam hüquq qabiliyyətinin digərləri ilə bərabər səviyyədə bərpa olunmasını təmin etmək üçün məqsəd və ya mahiyyət etibarilə 12-ci maddəni pozan bütün təcrübələr ləğv edilməlidir.

10. Bu ümumi şərh, ilk növbədə, 12-ci maddənin normativ məzmununa və ondan irəli gələn dövlətin öhdəliklərinə diqqət yetirir. Komitə gələcək yekun müşahidələrdə, ümumi şərhlərdə və digər sənədlərdə 12-ci maddədən irəli gələn hüquq və öhdəliklərə dair daha ətraflı təlimat vermək üçün bu sahədə işləri davam etdirəcəkdir.

## II. 12-ci maddənin normativ məzmunu

### 12-ci maddənin 1-ci bəndi

11. 12-ci maddənin 1-ci bəndində hər bir əlilliyi olan şəxsin qanun qarşısında bərabər müdafiə vasitələri hüququ olduğu bir daha təsdiq edilir. Bu, hər bir insanın hüquqi statusa malik şəxs kimi hörmət edilməsinə zəmanət verir ki, bu da şəxsin fəaliyyət qabiliyyətinin tanınması üçün ilkin şərtdir.

### 12-ci maddənin 2-ci bəndi

12. 12-ci maddənin 2-ci bəndində əlilliyi olan şəxslərin həyatın bütün sahələrində digərləri ilə bərabər hüquq qabiliyyətinə malik olduqları qəbul edilir. Hüquq qabiliyyətinə həm hüquq sahibi olmaq, həm də qanuna uyğun olaraq fəaliyyət qabiliyyəti daxildir. Hüquq sahibi olmaq fəaliyyət qabiliyyəti olan şəxsə öz hüquqlarını tam şəkildə müdafiə etmək hüququ verir. Qanuna əsasən fəaliyyət qabiliyyəti həmin şəxsi sövdələşmə aparmaq və hüquqi münasibətlər yaratmaq, dəyişdirmək və ya bitirmək səlahiyyətinə malik tərəf kimi tanıyır. Hüquqi tərəf kimi tanınmaq hüququ dedikdə, iştirakçı dövlətlər üçün Konvensiyanın 12-ci maddəsinin 5-ci bəndində "əlilliyi olan şəxslərin əmlaka sahibliyinə və onun vəsiyyət edilməsinə, şəxsi maliyyə işlərinin idarə olunmasına, habelə bank ssudalarını, ipoteka kreditlərini və maliyyə kreditləşdirilməsinin digər formalarını bərabər şəraitdə əldə etməsinə bərabər hüquqlarının təmin olunması üçün bütün zəruri və səmərəli tədbirləri görür və əlilliyi olan şəxslərin öz əmlakından özbaşına məhrum edilməməsi" üçün tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

13. Fəaliyyət qabiliyyəti və əqli qabiliyyət fərqli anlayışlardır. Fəaliyyət qabiliyyətinə hüquq və vəzifələrə sahib olmaq (hüquqi statusu və ya hüquq qabiliyyəti) və bu hüquq və vəzifələri həyata keçirmək (fəaliyyət qabiliyyəti) daxildir. Bu, cəmiyyətdə faydalı iştirak üçün açardır. Əqli qabiliyyət insanın qərar qəbul etmə bacarıqlarına aiddir, təbii olaraq bir şəxsdən digərinə dəyişir və bir çox amillərdən, o cümlədən ətraf mühit və sosial amillərdən asılı olaraq müəyyən bir şəxs üçün fərqli ola bilər. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (maddə 6), Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt (maddə 16) və Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (maddə 15) kimi hüquqi sənədlər əqli və hüquq qabiliyyəti arasında fərqi müəyyən etmir. Bununla belə, Əlilliyi olan şəxslərin Hüquqları haqqında Konvensiyanın 12-ci maddəsi aydın şəkildə göstərir ki, "əqli və ya hissiyyat pozuntularının olması" və digər ayrı-seçkilik yaradan təcrübələri hüquq qabiliyyətindən (həm hüquqi status, həm də fəaliyyət qabiliyyət) məhrum edilməsi üçün qanuni səbəblər deyil. Konvensiyanın 12-ci maddəsinə əsasən, real və ya dərk edilən əqli məhdudiyyətlər fəaliyyət qabiliyyətinin inkar edilməsi üçün əsas kimi istifadə edilməməlidir.

14. Hüquq qabiliyyəti bütün insanlar, o cümlədən əlilliyi olan şəxslərin malik olduğu ayrılmaz hüquqdur. Yuxarıda qeyd edildiyi kimi, o, iki elementden ibarətdir. Birincisi, hüquqi statusdur, yəni hüquqlara malik olmaq və qanun qarşısında hüquqi şəxs kimi tanınmaq imkanı. Buraya doğum haqqında şəhadətnamə, tibbi yardım almaq, seçici siyahılarında qeydiyyatdan keçmək və pasport üçün müraciət etmək hüququ daxildir. İkincisi, öz hərəkətləri ilə hüquqlarını həyata keçirmək, həmin hərəkətlərin qanunla tanınmasıdır. Əlilliyi olan şəxslər üçün tez-tez imtina edilən və ya məhdudlaşdırılan məhz bu komponentdir. Məsələn, qanunlar əlilliyi olan şəxslərin əmlaka sahib olmasına icazə verə bilər, lakin onların əmlak alqı-satqısı ilə bağlı görülən hərəkətlərinə həmişə hörmətlə yanaşılmaya bilər. Hüquq qabiliyyəti o deməkdir ki, bütün insanlar, o cümlədən əlilliyi olan şəxslər hüquqi statusa və fəaliyyət qabiliyyətinə malikdirlər. Buna görə də hüquq qabiliyyətinin həyata keçirilməsi üçün hər iki element tanınmalıdır; onları ayırmaq olmaz. Əqli qabiliyyət anlayışı özlüyündə çox mübahisəlidir. Əqli qabiliyyət, ümumiyyətlə təqdim edildiyi kimi, obyektiv, elmi və təbii bir fenomen deyil. Əqli qabiliyyət sosial və siyasi kontekstlərdən, eləcə də əqli qabiliyyətin qiymətləndirilməsində əsas rol oynayan elm sahələri, peşələr və təcrübələrdən asılıdır.

15. Komitənin bu günə qədər baxdığı iştirakçı dövlətlərin hesabatlarının əksəriyyətində əqli və fəaliyyət qabiliyyəti anlayışları o qədər yaxındır ki, əgər bir şəxs çox vaxt əqli və hissiyat pozuntularına görə məhdud qərar qəbul etmə qabiliyyətinə malik hesab edilirsə, o zaman o müəyyən qərarlar qəbul etmək üçün hüquq qabiliyyətindən məhrum edilir. Bu, ya tək əlilliyi olan şəxsin diaqnozu əsasında (statusa əsaslanan yanaşma), ya da həmin şəxs qərar qəbul etsə mənfi nəticələrə səbəb olacağına inanıldığından (nəticəyə əsaslanan yanaşma), yaxud da şəxsin qərar qəbul etmə qabiliyyəti məhdud hesab edildikdə (funksional yanaşma) baş verir. Funksional yanaşma əqli qabiliyyəti qiymətləndirməyə və müvafiq olaraq hüquq qabiliyyətini inkar etməyə çalışır. Bu, çox vaxt şəxsin qərarın mahiyyətini və nəticələrini başa düşə bilib-bilməməsinə və ya müvafiq məlumatdan istifadə edib-etməməsinə əsaslanır. Bu yanaşmadan iki əsas səbəbə görə imtina edilməlidir: (a) əlilliyi olan şəxslərə qarşı ayrı-seçkilik yaradır və (b) güman edilir ki, şəxsin özünü idarəetmə qabiliyyətini dəqiq qiymətləndirmək olar və müvafiq şəxs "testdən keçmədikdə" o, fundamental insan hüququndan - qanun qarşısında bərabər tanınma hüququndan məhrum edilir. Bütün bu yanaşmalarda şəxsin əlilliyi və qərar vermə bacarığı onun fəaliyyət qabiliyyətindən və qanun qarşısında hüquq subyekti olaraq tanınması hüququndan məhrum edilməsi üçün qanuni əsas kimi qəbul edilir. 12-ci maddə hüquq qabiliyyətinin bu cür ayrı-seçkilik xarakterli inkarına yol vermir, əksinə, fəaliyyət qabiliyyətinin həyata keçirilməsində dəstəyin göstərilməsini tələb edir.

**12-ci maddənin 3-cü bəndi**

16. 12-ci maddənin 3-cü bəndinə əsasən, iştirakçı dövlətlər əlilliyi olan şəxslərə öz hüquq qabiliyyətini həyata keçirmələri üçün zəruri dəstəyi təmin etməlidirlər. İştirakçı dövlətlər əlilliyi olan şəxsləri hüquq qabiliyyətindən məhrum etməkdən çəkinməli və əksinə, onlara hüquqi qüvvəyə malik qərarlar qəbul etmələri üçün lazımi dəstəyi təmin etməlidirlər.

17. Hüquq qabiliyyətinin həyata keçirilməsinə dəstək kimi əlilliyi olan şəxslərin hüquqlarına, iradəsinə və istəklərinə hörmət edilməli və heç vaxt onların əvəzinə qərar qəbul edilməməlidir. 12-ci maddənin 3-cü bəndində dəstəyin hansı formada olması göstərilmir. “Dəstək” müxtəlif növ və intensivlikdə həm qeyri-rəsmi, həm də rəsmi dəstək tədbirlərini əhatə edən geniş termindir. Beləliklə, əlilliyi olan şəxslər müəyyən qərarlar qəbul etmək üçün öz hüquq qabiliyyətini həyata keçirməkdə onlara dəstək olmaq üçün öz seçdikləri bir və ya bir neçə etibarlı köməkçi şəxsə həvalə edə və ya digər dəstək formalarına, məsələn, həmyaşıdlarının dəstəyinə, vəkillik (o cümlədən, özünümüdafiə dəstəyi) və ya ünsiyyətdə kömək kimi digər dəstək formalarına müraciət edə bilərlər. Əlilliyi olan şəxslərin öz hüquq qabiliyyətini həyata keçirmələrinə dəstək kimi universal dizayn və müyəssərlik ilə bağlı tədbirlər (məsələn, dövlət və özəl bankların və maliyyə institutları məlumatları anlaşıqlı formada təqdim etməsi və ya işarət dilindən istifadə etməklə peşəkar surdo-tərcümənin təmin edilməsi) əlilliyi olan şəxslərə bank hesabı açmaq, müqavilələr bağlamaq və ya digər ictimai münasibətlər qurmaq üçün zəruri olan hüquqi addımların yerinə yetirməsini əhatə edə bilər. Dəstək həm də müxtəlif ünsiyyət metodlarının inkişafı və tanınmasını, xüsusən də, öz iradə və istəklərini ifadə etmək üçün

qeyri-nitq kimi ünsiyyət formalarından istifadə edənlər üçün təşkil edilə bilər. Bir çox əlilliyi olan şəxslər üçün əvvəlcədən planlaşdırma bacarığı mühüm dəstək formasıdır və bu yolla onlar öz istəklərini başqalarına çatdıra bilməyəcəklərini və istəklərini ifadə edə bilirlər. Bütün əlilliyi olan şəxslər əvvəlcədən planlaşdırma ilə bağlı hüquqa malikdir və buna digərləri ilə bərabər səviyyədə imkan verilməlidir. İştirakçı dövlətlər əvvəlcədən planlaşdırma mexanizmlərinin müxtəlif formalarını təqdim edə bilərlər, lakin bütün formalar ayrı-seçkiliyə yol verməməlidir. İstənilən yerdə planlaşdırma prosesini başa çatdırmaq üçün əlilliyi olan şəxsə dəstək göstərilməlidir. İlkin göstərişin qüvvəyə mindiyi (və qüvvəsini itirdiyi) məqam şəxs tərəfindən qərarlaşdırılmalı və direktivin mətninə daxil edilməlidir; insanın əqli qabiliyyətinin olmaması ilə bağlı qiymətləndirməyə əsaslanmamalıdır.

18. Tələb olunan dəstəyin xarakteri və dərəcəsi əlilliyi olan şəxslərin müxtəlifliyinə görə bir şəxsdən digərinə əhəmiyyətli dərəcədə dəyişir. Bu, Konvensiyanın ümumi prinsipi kimi "fərqliliyə hörmət və əlilliyi olan şəxslərin insan müxtəlifliyinin və bəşəriyyətin bir hissəsi kimi qəbul edilməsini" təsbit edən 3-cü maddəsinin "d" bəndinə uyğundur. İstənilən vaxt, o cümlədən böhran vəziyyətlərində, əlilliyi olan şəxslərin fərdi müstəqilliyinə və qərar qəbul etmək qabiliyyətinə hörmət edilməlidir.

19. Bəzi əlilliyi olan şəxslər Konvensiyanın 12-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulduğu kimi, yalnız digərləri ilə bərabər səviyyədə hüquq qabiliyyətinin tanınmasına çalışır və 12-ci maddənin 3-cü bəndində nəzərdə tutulduğu kimi, dəstək almaq hüququndan istifadə etməyi istəməyə bilərlər.

**12-ci maddənin 4-cü bəndi**

20. 12-ci maddənin 4-cü bəndi hüquq qabiliyyətinin həyata keçirilməsində hər hansı dəstək sisteminin təqdim edilməli olan təminatlarını müəyyən edir. Bu bənd 12-ci maddənin və bütövlükdə Konvensiyanın digər müddəaları ilə birlikdə oxunmalıdır. Bu da, iştirakçı dövlətlərdən hüquq qabiliyyətinin həyata keçirilməsi üçün müvafiq və effektiv təminatlar yaratmağı tələbedir. Bu təminatların əsas məqsədi şəxsin hüquqlarına, iradəsinə və istəklərinə hörmət edilməsini təmin etməkdir. Bunu həyata keçirmək üçün təminatlar digərləri ilə bərabər səviyyədə sui-istifadədən müdafiəni təmin etməlidir.

21. Bu məqsədlə edilən əhəmiyyətli səylərə baxmayaraq, fərdin iradəsini və istəklərini müəyyən etmək mümkün olmadıqda, "iradə və istəklərinin optimal şərhi" "ali maraqlar" anlayışını əvəz etməlidir. Bu, 12-ci maddənin 4-cü bəndinə uyğun olaraq fərdin hüquqlarına, iradəsinə və istəklərinə hörmət edir. "Ali maraqlar" prinsipi yetkinlərə münasibətdə 12-ci maddəyə uyğun gələn təminat deyil. "İradə və istəklər" paradiqması əlilliyi olan şəxslərin digərləri ilə bərabər hüquq qabiliyyətindən istifadə etmələrini təmin etmək üçün "ali maraqlar" paradiqmasını əvəz etməlidir.

22. Bütün insanlar "qeyri-qanuni təsir"ə məruz qalmaq riski daşıyır, lakin qərar qəbul etmək üçün başqalarının dəstəyinə arxalananlar üçün bu, daha da böyük ola bilər. Qeyri-qanuni təsir, dəstək göstərən şəxslə dəstək alan şəxs arasında münasibətlərdə qorxu, aqressiya, təhdid, aldatma və ya manipulyasiya əlamətlərinin meydana çıxması ilə

xarakterizə olunur. Hüquq qabiliyyətinin həyata keçirilməsi ilə bağlı təminatlara qeyri-qanuni təsirdən müdafiə daxildir; lakin müdafiə şəxsin hüquqlarına, iradəsinə və istəklərinə, o cümlədən risk və səhv etmək hüququna hörmət etməlidir.

**12-ci maddənin 5-ci bəndi**

23. 12-ci maddənin 5-ci bəndi iştirakçı dövlətlərdən digərləri ilə bərabər səviyyədə əlilliyi olan şəxslərin maliyyə və iqtisadi məsələlərlə bağlı hüquqlarını təmin etmək üçün qanunvericilik, inzibati, məhkəmə və digər praktiki tədbirlər də daxil olmaqla tədbirlər görməyi tələb edir. Əlilliyin tibbi modeli əsasında əlilliyi olan şəxslər maliyyə resurslarına çıxışdan və əmlak əldə etmək hüququndan məhrum edilirlər. Əlilliyi olan şəxslərin maliyyə məsələləri üzrə fəaliyyət qabiliyyətinin inkar edilməsi yanaşması 12-ci maddənin 3-cü bəndinə uyğun olaraq hüquq qabiliyyətinin həyata keçirilməsinin dəstəklənməsi ilə əvəz edilməlidir. Eyni şəkildə, gender bərabərliyi, eləcə də əlillik maliyyə və əmlak sahələrində ayrı-seçkilik üçün əsas kimi istifadə edilə bilməz.[1]

## III. İştirakçı dövlətlərin öhdəlikləri

24. İştirakçı dövlətlər bütün əlilliyi olan şəxslərin qanun qarşısında bərabər tanınma hüququna hörmət etmək, qorumaq və yerinə yetirmək öhdəliyinə malikdirlər. Bununla əlaqədar olaraq, iştirakçı dövlətlər əlilliyi olan şəxslərin qanun qarşısında bərabər tanınma hüququndan məhrum edən hər hansı hərəkətdən çəkinməlidirlər.İştirakçı dövlətlər qeyri-dövlət subyektlərinin və fiziki şəxslərin əlilliyi olan şəxslərin öz insan hüquqlarını, o cümlədən hüquq qabiliyyətini həyata keçirmək və ondan istifadə etmək imkanlarına müdaxiləsinin qarşısını almaq üçün tədbirlər görməlidirlər. Hüquq qabiliyyətinin həyata keçirilməsində dəstəyin məqsədlərindən biri əlilliyi olan şəxslərin inamını və bacarıqlarını formalaşdırmaqdır ki, onlar gələcəkdə daha az dəstək alaraq öz hüquq qabiliyyətini həyata keçirə bilsinlər. İştirakçı dövlətlər dəstək alan şəxslərə daha az dəstəyə ehtiyac olduqda və ya öz hüquq qabiliyyətinin həyata keçirilməsində artıq dəstəyə ehtiyac olmadığına qərar verə bilmələri üçün təlimlə təmin etməlidirlər.

25. "Universal hüquq qabiliyyəti"ni, yəni hüquq qabiliyyətinin əlilliyindən və ya qərar qəbul etmə qabiliyyətindən asılı olmayaraq bütün insanlara xas olması anlayışını tam tanımaq üçün iştirakçı dövlətlər məqsəd və ya təsir baxımından ayrı-seçkilik yaradan əlilliyə əsaslanan hüquq qabiliyyətinin inkarına son qoymalıdırlar.[2]

---

[1]Baxın: "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya, 13-cü maddə (b)
[2]Baxın: "Əlilliyi olan şəxslərin Hüquqları haqqında" Konvensiya, 2-ci maddə, 5-ci maddə ilə birlikdə

26. İştirakçı dövlətlərin ilkin hesabatlarına dair yekun müşahidələrində Əlilliyi olan şəxslərin Hüquqları Komitəsi dəfələrlə 12-ci maddə ilə bağlı qeyd etmişdir ki, iştirakçı

dövlətlər "qəyyumluq və qəyyumluğu nəzərdə tutan qanunları yenidən nəzərdən keçirməli və qərar qəbul etmə və iradəyə hörmət edən şəxslər tərəfindən dəstəklənən qərar qəbuletmə rejimlərini əvəz etmək üçün qanunlar və siyasətlər hazırlamaq üçün tədbirlər görməlidirlər".

27. Əvəzedici qərar qəbuletmə sistemləri plenar qəyyumluq, məhkəmə qadağası və qismən qəyyumluq da daxil olmaqla bir çox müxtəlif formalarda ola bilər. Bununla belə, bu sistemlərin müəyyən ümumi xüsusiyyətləri vardır: bunlara (i) tək bir qərara görə belə, şəxsdən hüquq qabiliyyəti götürülən; (ii) müvafiq şəxsin yerinə qərarların qəbul edilməsinə cavabdeh olan üçüncü şəxsin onun iradəsinə zidd olaraq həmin şəxs deyil, başqa biri tərəfindən təyin edilən; və (iii) əvəzedici şəxs qəbul edilən hər hansı qərarın şəxsin öz iradə və istəklərinə deyil, obyektiv şəkildə "ali maraqlarına" cavab verən sistemlər daxildir.

28. İştirakçı dövlətlərin əvəzedici qərar qəbuletmə sistemlərini dəstəkləyici qərar qəbulu ilə əvəz etmək öhdəliyi həm birincinin ləğvini, həm də ikincinin yaradılmasını tələb edir. Əvəzedici qərar qəbuletmə sisteminin saxlanması ilə paralel olaraq dəstəkləyici qərar qəbuletmə sistemlərinin inkişafı Konvensiyanın 12-ci maddəsinə riayət etmək üçün kifayət deyil.

29. Dəstəkləyici qərar qəbuletmə sistemləri insanın iradə və istəklərini prioritetləşdirən və insan hüquqları normalarına hörmət edən müxtəlif dəstək seçimlərindən ibarətdir. O, bütün hüquqların, o cümlədən fərdi sərbəstliyi (hüquqi qabiliyyət, qanun qarşısında bərabərlik, öz yaşayış yerini seçmək hüququ və s.) və sui-istifadə və pis rəftardan azadolma ilə bağlı hüquqların (yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ və s.) müdafiəsini təmin etməlidir. Bundan əlavə, dəstəkləyici qərar qəbuletmə sistemləri əlilliyi olan şəxslərin həyatını həddindən artıq tənzimləməməlidir. Dəstəkləyici qərar qəbuletmə sistemləri müxtəlif formalarda ola bilsə də, onların hamısı Konvensiyanın 12-ci maddəsinə uyğunluğu təmin etmək üçün müəyyən əsas müddəaları, o cümlədən aşağıdakıları özündə birləşdirməlidir:

(a) Dəstəkləyici qərarın qəbulu hamı üçün əlçatan olmalıdır. Şəxsin ehtiyac duyduğu dəstək səviyyəsi, xüsusən də yüksəkdirsə, qərar qəbul edərkən dəstəyin əldə edilməsinə maneə olmamalıdır;

(b) Hüquq qabiliyyətinin həyata keçirilməsində dəstəyin bütün formaları, o cümlədən daha intensiv dəstək formaları şəxsin ən yaxşı mənafeyinə uyğun hesab edilənə deyil, onun iradəsinə və istəklərinə əsaslanmalıdır;

(c) Şəxsin ünsiyyət tərzi, hətta bu ünsiyyətin üsulları və ya çox az adam tərəfindən başa düşüldüyü hallarda belə, qərar qəbul etməkdə dəstək almaq üçün maneə yaratmamalıdır;

(d) Şəxs tərəfindən formal olaraq seçilmiş dəstəkləyici şəxsin (və ya şəxslərin) hüquqi tanınması mümkün və əlçatan olmalıdır. Dövlətlər, xüsusən də təcrid olunmuş və icmalarında dəstək tədbirlərinə çıxışı olmayan şəxslər üçün dəstəyi təmin etməlidirlər. Bu, üçüncü tərəflər üçün dəstəkləyici şəxsin şəxsiyyətini yoxlamaq mexanizmini, habelə

üçüncü şəxslərə müvafiq şəxsin iradə və istəklərinə uyğun hərəkət etmədiklərinə inandıqları halda onların həyata keçirdikləri hərəkətlərə etiraz etmək mexanizmini nəzərdə tutmalıdır;

(e) Konvensiyanın 12-ci maddəsinin 3-cü bəndində “lazımi dəstəyə çıxış”ı təmin etmək üçün tədbirlər görmək tələb olunduğundan, iştirakçı dövlətlər bu dəstəyin əlilliyi olan şəxslərə nominal qiymətə və ya pulsuz təklif edilməsini təmin etmək üçün lazımi addımları atmalıdırlar və maliyyə resurslarının çatışmazlığı hüquq qabiliyyətinin həyata keçirilməsində dəstəyə çıxış üçün maneə yaratmamalıdır;

(f) qərarların qəbul edilməsində dəstək əlilliyi olan şəxslərin digər əsas hüquqlarının, xüsusən də səsvermə hüququ, nikaha daxil olmaq və ya mülki tərəfdaşlıq qurmaq və ailə qurmaq hüququ, reproduktiv hüquqlar, valideynlik hüquqları, intim münasibətlərə və tibbi müalicəyə razılıq vermək hüququ və azadlıq hüququnun məhdudlaşdırılması üçün əsas kimi istifadə edilməməlidir;

(g) şəxs istənilən vaxt dəstəkdən imtina etmək və onu dayandırmaq və ya dəyişdirmək hüququna malik olmalıdır;

(h) Hüquq qabiliyyəti ilə bağlı bütün proseslər və hüquq qabiliyyətinin həyata keçirilməsi üçün dəstək təminatları yaradılmalıdır. Bu təminatların məqsədi şəxsin iradə və istəklərinə hörmət edilməsini təmin etməkdir.

(i) Hüquq qabiliyyətinin həyata keçirilməsində dəstəyin göstərilməsi əqli qabiliyyətin qiymətləndirilməsindən asılı olmamalıdır; Hüquq qabiliyyətini həyata keçirərkən dəstəyin təmin edilməsi məqsədləri üçün dəstək ehtiyaclarının yeni, ayrı-seçkiliyə yol verilməyən göstəriciləri zəruridir.

30. Qanun qarşısında bərabərlik hüququ uzun müddətdir ki, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktdan qaynaqlanan mülki və siyasi hüquq kimi tanınır. Mülki və siyasi hüquqlar ratifikasiya edildikdən sonra qüvvəyə minir və iştirakçı dövlətlərdən bu hüquqların dərhal həyata keçirilməsi üçün addımlar atması tələb olunur. Beləliklə, 12-ci maddədə nəzərdə tutulmuş hüquqlar ratifikasiya edildikdən sonra tətbiq edilir və dərhal həyata keçirilməlidir. 12-ci maddənin 3-cü bəndində nəzərdə tutulmuş dövlətin öhdəliyi mülki və siyasi hüququnun həyata keçirilməsində hüquqi qabiliyyətin digərləri ilə bərabər səviyyədə tanınması ilə bağlı öhdəlikdir. “Mütərəqqi həyata keçirmə” (4-cü maddənin 2-ci bəndi) 12-ci maddənin müddəalarına şamil edilmir. İştirakçı dövlətlər Konvensiyanı ratifikasiya etdikdən sonra dərhal 12-ci maddədə nəzərdə tutulmuş hüquqların həyata keçirilməsi istiqamətində tədbirlər görməyə başlamalıdırlar. Bu tədbirlər düşünülmüş, yaxşı planlaşdırılmış olmalı və əlilliyi olan şəxslər və onları təmsil edən təşkilatlarla məsləhətləşməli və onların səmərəli iştirakını əhatə etməlidir.

## IV. Konvensiyanın digər müddəaları ilə əlaqəsi

31. Hüquq qabiliyyətinin tanınması əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyada təsbit edilmiş bir çox digər hüquqlarla, xüsusi ilə, ədalət mühakiməsinə

çıxış (maddə 13); öz iradəsinə zidd olaraq psixiatriya müəssisəsində saxlanılmamaq və psixiatrik müalicəyə məcbur edilməmək hüququ (maddə 14); şəxsin fiziki və psixi toxunulmazlığına hörmət hüququ (maddə 17); yerdəyişmə azadlığı və vətəndaşlıq hüququ (maddə 18); harada və kiminlə yaşayacağını seçmək hüququ (maddə 19); ifadə azadlığı hüququ (maddə 21); nikaha daxil olmaq və ailə qurmaq hüququ (maddə 23); tibbi müalicəyə razılıq hüququ (maddə 25) və seçmək və seçilmək hüququ (maddə 29) ilə sıx bağlıdır. Şəxsin qanun qarşısında hüquq subyekti olaraq tanınmaması onların həmin hüquqları və Konvensiyada təsbit edilmiş bir çox digər hüquqları müdafiə etmək və həyata keçirmək imkanlarına əhəmiyyətli dərəcədə zərər verəcəkdir.

**5-ci maddə: Bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi**

32. Qanun qarşısında hüquq subyekti olaraq bərabər tanınmasına nail olmaq üçün hüquq qabiliyyəti ayrı-seçkilik yolu ilə inkar edilməməlidir. Konvensiyanın 5-ci maddəsi bütün şəxslərin qanun çərçivəsində və qanun qarşısında bərabərliyinə və qanun tərəfindən bərabər müdafiə hüququna təminat verir. O, əlilliklə bağlı istənilən ayrı-seçkiliyi açıq şəkildə qadağan edir. Konvensiyanın 2-ci maddəsində əlillik zəminində ayrı-seçkilik “bütün insan hüquqlarının və əsas azadlıqlarının digərləri ilə bərabər səviyyədə tanınmasının, realizə olunmasının və ya həyata keçirilməsinin məhdudlaşdırılmasından və ya inkar olunmasından ibarət əlilliklə bağlı istənilən fərqqoyma, istisna və məhdudiyyətlər tətbiqetmə” kimi müəyyən edilmişdir. Əlilliyi olan şəxslərin qanun qarşısında hüquq subyekti olaraq bərabər tanınma hüququna müdaxilə məqsədi daşıyan hüquqi qabiliyyətin inkar edilməsi Konvensiyanın 5 və 12-ci maddələrinin pozulmasıdır. Dövlətlər tutulma və ya cinayət məsuliyyətinə cəlb edilmə kimi hallarda şəxsin hüquq qabiliyyətini məhdudlaşdırmaq səlahiyyətinə malikdir. Bununla belə, qanun qarşısında bərabər tanınma və ayrı-seçkilikdən azad olma hüququ tələb edir ki, dövlət hüquq qabiliyyətini məhdudlaşdırdıqda, bu, bütün şəxslər üçün eyni əsasda olmalıdır. Hüquq qabiliyyətinin inkarı cins, irq və ya əlillik kimi xüsusiyyətlərə əsaslanmamalı və ya şəxsə fərqli münasibət göstərmək məqsədi daşımamalıdır.

33. Hüquq qabiliyyətinin tanınması ayrı-seçkiliyə yol verilməməsi, Konvensiyanın 3-cü maddəsinin “a” bəndində təsbit olunmuş prinsiplərə uyğun olaraq müstəqillik və şəxsin insan ləyaqətinə hörməti təmin edir. Şəxsi seçimetmə azadlığı əksər hallarda hüquqi qabiliyyət tələb edir. Müstəqillik və fərdi sərbəstlik öz qərarlarına qanuni olaraq hörmətlə yanaşıldığını görmək səlahiyyətini ehtiva edir. Qərar qəbuledilmədə dəstək və ağlabatan şəraitə olan ehtiyac şəxsin hüquq qabiliyyətini şübhə altına almaq üçün istifadə edilməməlidir. Fərqliliyə hörmət və əlilliyi olan şəxslərin insan müxtəlifliyinin və bəşəriyyətinin bir hissəsi kimi qəbul edilməsi (3-cü maddənin “d” bəndi) assimilyasiya kontektsində hüquq qabiliyyətinin verilməsi ilə bir araya sığmır.

34. Ayrı-seçkiliyə yol verilməməsi hüquq qabiliyyətinin həyata keçirilməsində ağlabatan uyğunlaşdırılmadan istifadə hüququnu əhatə edir (5-ci maddənin 3-cü bəndi). Konvensiyanın 2-ci maddəsində ağlabatan uyğunlaşdırılma dedikdə “əlilliyi olan şəxslər tərəfindən digərləri ilə bərabər səviyyədə bütün insan hüquqlarının və əsas azadlıqlarının realizəsi və həyata keçirilməsini təmin etmək məqsədilə zəruri olan hər bir konkret halda qeyri-mütənasib və əsassız yük olmayan zəruri və uyğun modifikasiya

və düzəlişlər edilməsi” nəzərdə tutulur. Hüquq qabiliyyətinin həyata keçirilməsində ağlabatan uyğunlaşdırılmadan istifadə hüquq qabiliyyətinin həyata keçirilməsində dəstəkdən fərqlidir və onu tamamlayır. İştirakçı dövlətlərdən, qeyri-mütənasib və ya əsassız yük olmadığı halda, əlilliyi olan şəxslərin öz hüquq qabiliyyətini həyata keçirməsi üçün hər hansı zəruri və uyğun modifikasiya və düzəlişlər edilməsi tələb olunur. Bu cür dəyişiklik və ya düzəlişlərə məhkəmələr, banklar, sosial yardım müəssisələri və səsvermə məntəqələri kimi əsas binalara giriş, hüquqi qüvvəyə malik qərarlarla bağlı əlçatan məlumat və fərdi yardım daxil ola bilər. Hüquq qabiliyyətinin həyata keçirilməsində dəstək hüququ qeyri-mütənasib və ya əsassız yük yaratmaq əsası ilə məhdudlaşdırılmamalıdır. Dövlətin hüquq qabiliyyətinin həyata keçirilməsində dəstəyə çıxışı təmin etmək üçün mütləq öhdəliyi vardır.

**6-cı maddə: Əlilliyi olan qadınlar**

35. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın 15-ci maddəsində qadınların kişilərlə bərabər hüquq qabiliyyəti təmin edilir və bununla da hüquq qabiliyyətinin tanınmasının qanun qarşısında bərabərlik hüququnun ayrılmaz hissəsi olduğu təsbit edilir: “İştirakçı-dövlətlər qadınlara kişilərlə eyni mülki hüquq səlahiyyəti və onu gerçəkləşdirmək üçün eyni imkanlar verirlər. Onlar, o cümlədən, qadınlara müqavilə bağlamaqda və əmlakı idarə etməkdə, həmçinin onlara məhkəmə və tribunal təhqiqatın bütün mərhələlərində bərabər münasibəti təmin edirlər” (2-ci bənd). Bu müddəa bütün qadınlara, o cümlədən əlilliyi olan qadınlara şamil edilir. Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya əlilliyi olan qadınların gender və əlillik əlamətlərinə görə çoxsaylı və ya kəskin ayrı-seçkilik formalarına məruz qala biləcəyini qəbul edir. Məsələn, əlilliyi olan qadınlar yüksək nisbətdə məcburi sterilizasiyaya məruz qalırlar və adətən onlar cinsi əlaqəyə razılıq verə bilmədiklərindən tez-tez reproduktiv sağlamlıqlarına və qərar qəbul etmələrinə nəzarətdən məhrum edilirlər. Bəzi dövlətlərdə kişilərə nisbətən qadınlara əvəzedici qərar qəbuletmənin nisbəti daha yüksəkdir. Buna görə də əlilliyi olan qadınların hüquq qabiliyyəti digərləri ilə bərabər səviyyədə tanınması xüsusi əhəmiyyət kəsb edir.

**7-ci maddə: Əlilliyi olan uşaqlar**

36. Konvensiyanın 12-ci maddəsi yaşından asılı olmayaraq bütün şəxslərin qanun qarşısında bərabərliyini qoruduğu halda, Konvensiyanın 7-ci maddəsi uşaqların inkişaf qabiliyyətlərini tanıyır və tələb edilir ki “əlilliyi olan uşaqlarla bağlı bütün tədbirlərdə uşağın ali maraqları nəzərə alınsın (2-ci bənd) və “yaş və yetkinlik səviyyələrinə uyğun olaraq fikirlərini sərbəst bildirsinlər” (3-cü bənd). 12-ci maddəni icra etmək üçün iştirakçı dövlətlər əlilliyi olan uşaqların iradə və istəklərinə digər uşaqlarla bərabər səviyyədə hörmət edilməsini təmin etmək üçün qanunlarını nəzərdən keçirməlidirlər.

**9-cu maddə: Müyəssərlik**

37. 12-ci maddədə nəzərdə tutulmuş hüquqlar iştirakçı dövlətlərin müyəssərliklə (maddə 9)əlaqəli öhdəlikləri ilə sıx bağlıdır. Belə ki, qanun qarşısında hüquq subyekt kimi bərabər tanınma hüququ əlilliyi olan şəxslərin müstəqil yaşaması və həyatın bütün

sahələrində tam iştirakı üçün zəruridir. 9-cu maddədə əhaliyə açıq olan və ya ona təqdim olunan obyekt və xidmətlərdən istifadə ilə bağlı maneələrin müəyyən edilməsi və aradan qaldırılması tələb olunur. İnformasiya və kommunikasiyaya və xidmətlərin müyəssər olmaması praktikada bəzi əlilliyi olan şəxslərin hüquq qabiliyyətinin həyata keçirilməsinə maneələr yarada bilər. Buna görə də, iştirakçı dövlətlər hüquq qabiliyyətinin həyata keçirilməsi üçün bütün prosedurları və bütün məlumat və kommunikasiyaları tam əlçatan etməlidirlər. İştirakçı dövlətlər hüquq qabiliyyəti və müyəssərlik hüququnu təmin etmək üçün öz qanunlarını və təcrübələrini nəzərdən keçirməlidirlər.

**13-cü maddə: Ədalət mühakiməsinin təmin olunması**

38. İştirakçı dövlətlərin əlilliyi olan şəxslərin digərləri ilə bərabər səviyyədə ədalət mühakiməsinin təmin edilməsi ilə bağlı öhdəliyi vardır. Hüquq qabiliyyətinin tanınması bir çox aspektdən ədalət mühakiməsinə çıxış üçün vacibdir. Öz hüquqlarını müdafiə etmək və vəzifələrinin digərləri ilə bərabər səviyyədə həyata keçirilməsi üçün əlilliyi olan şəxslər məhkəmələrdə və qanun qarşısında hüquqi subyekt kimi tanınmalıdırlar.
İştirakçı dövlətlər, həmçinin əlilliyi olan şəxsləri digərləri ilə bərabər səviyyədə qanuni nümayəndə ilə təmin etməlidirlər. Bir çox dövlətlərdə bununla bağlı, xüsusi ilə hüquq qabiliyyətinin məhdudlaşdırılması ilə üzləşən şəxslərin bu cür məhdudiyyətlərə şəxsən və ya qanuni nümayəndə vasitəsilə etiraz etmək və öz hüquqlarını məhkəmədə müdafiə etməklə bağlı həll edilməli problemləri vardır. Əlilliyi olan şəxslər çox vaxt vəkil, hakim, şahid və ya andlı iclasçı kimi ədliyyə sistemində əsas funksiyaları yerinə yetirmək hüququndan təcrid ediliblər.

39. Polis məmurları, sosial işçilər və digər fövqəladə hallara müdaxilə edənlər əlilliyi olan şəxsləri qanun qarşısında tam hüquqlu şəxs kimi tanımaq, şikayət və ifadələrinə digər şəxslərlə eyni dərəcədə əhəmiyyət vermələri üçün təlim keçməlidirlər. Bu, həmin mühüm peşələrlə məşğul olanların təlimi və maarifləndirmənin həyata keçirilməsini zəruri edir. Əlilliyi olan şəxslər digərləri ilə bərabər səviyyədə məhkəmədə şahidlik etmək hüququna malikdirlər. Konvensiyanın 12-ci maddəsi hüquq qabiliyyətinin, o cümlədən, məhkəmə, inzibati və digər məhkəmə proseslərində şahidlik etmək hüququnun həyata keçirilməsində dəstəyə zəmanət verir. Bu cür dəstək tədbirlərinə, müxtəlif ünsiyyət vasitələri, müəyyən situasiyalarda video vasitəsilə şahidlik etmə, prosessual uyğunlaşdırılma, peşəkar surdotərcümə xidməti ilə təmin edilmə və digər köməkçi vasitələr daxildir. Həmçinin ədliyyə orqanları işçilərinə hüquqi təmsilçilik və hüquqi status da daxil olmaqla, əlilliyi olan şəxslərin hüquq qabiliyyətinə hörmət etmək öhdəliyi barədə təlim keçirilməli və məlumatlandırılmalıdırlar.

**14-cü və 25-ci maddələr: Azadlıq, təhlükəsizlik və razılıq**

40. Əlilliyi olan şəxslərin digərləri ilə bərabər hüquq qabiliyyətinə hörmət onların azadlıq və şəxsi toxunulmazlıq hüququna hörmət edilməsini əhatə edir. Əlilliyi olan şəxslərin hüquq qabiliyyətinin inkar edilməsi və onların öz iradəsinə zidd, öz razılığı olmadan və ya əvəzedici qərar qəbul edən şəxsin razılığı ilə müəssisələrdə saxlanması

aktual problemdir. Bu təcrübə özbaşına azadlıqdan məhrumetməni təşkil edir və Konvensiyanın 12 və 14-cü maddələrini pozur. İştirakçı dövlətlər bu cür təcrübələrdən çəkinməli və əlilliyi olan şəxslərin açıq şəkildə öz razılığı olmadan yaşayış müəssisələrində yerləşdirilməsi hallarının qarşısının alınması üçün mexanizm yaratmalıdırlar.

41. Mümkün və ən yüksək sağlamlıq standartından yararlanmaq hüququna (maddə 25) tibbi xidmətdən sərbəst və məlumatlı razılıq əsasında istifadə etmək hüququ daxildir. İştirakçı dövlətlər hər hansı müalicədən əvvəl bütün həkim və tibb işçilərindən (psixiatrlar da daxil olmaqla) əlilliyi olan şəxslərin sərbəst və məlumatlı razılığını almağı tələb etməlidirlər. İştirakçı dövlətlər digərləri ilə bərabər səviyyədə fəaliyyət qabiliyyəti hüququna münasibətdə belə razılığın alınması üçün əvəzedici qərar qəbuletmə sistemlərinə icazə verməmək öhdəliyi daşıyırlar. Bütün həkim və digər tibb işçiləri əlilliyi olan şəxslə birbaşa və lazımi şəkildə məsləhətləşməlidirlər. Onlar həmçinin öz imkanları daxilində əlilliyi olan şəxslərə yardım və ya dəstək göstərən şəxslərin onlara aid qərarların qəbulunda əlilliyi olan şəxslərin yerini tutmamasını və ya bu qərarlara yersiz təsir göstərməməsini təmin etməlidirlər.

**15-ci, 16-cı və 17-ci maddələr: Şəxsi toxunulmazlığa hörmət və işgəncələrdən, istismardan, zorakılıqdan və təhqirdən azad olma**

42. Komitənin bir sıra yekun müşahidələrində qeyd edildiyi kimi, psixiatr, həkim və digər tibb işçiləri tərəfindən məcburi müalicə qanun qarşısında bərabər tanınma və şəxsi toxunulmazlıq hüququ (maddə 17); işgəncəyə məruz qalmamaq hüququ (maddə 15) və zorakılıq, istismar və sui-istifadədən azad olmaq hüququnun (maddə 16) pozulmasıdır. Bu təcrübə şəxsin tibbi müalicəni seçmək qabiliyyətini inkar edir və buna görə də Konvensiyanın 12-ci maddəsinin pozulmasına səbəb olur. İştirakçı dövlətlər, əksinə, böhran vəziyyətləri də daxil olmaqla, hər zaman əlilliyi olan şəxslərin qərar qəbuletmə hüququna hörmət etməlidirlər; tibbi olmayan yanaşmaların mövcudluğu, tibbi xidmət seçimləri haqqında dəqiq və əlçatan formada məlumatları təmin etməlidir; və müstəqil dəstəyə çıxışı təmin etməlidir. İştirakçı dövlətlər psixiatrik və digər tibbi müalicə ilə bağlı qərarların qəbulu üçün dəstəyi təmin etməlidirlər. Məcburi müalicə psixososial, əqli və zehni inkişaf məhdudiyyəti olan insanlar üçün xüsusi problemdir. İştirakçı dövlətlər məcburi müalicəyə icazə verən və ya həyata keçirən siyasətləri və qanunvericilik aktlarını ləğv etməlidirlər, çünki empirik sübutlar belə müalicənin səmərəsiz olduğunu göstərirs, onun tətbiq olunduğu psixi sağlamlıq sistemlərinin istifadəçiləri bunun onlarda dərin iztirab və travmaya səbəb olduğunu bildirir. və Bu, bütün dünyada psixi sağlamlıq qanunlarının icazə verdiyi pozuntudur. Komitə iştirakçı dövlətlərə tövsiyə edir ki, şəxsin fiziki və ya əqli toxunulmazlığına təsir edən bütün qərarların yalnız şəxsin azad və məlumatlı razılığı ilə verilməsini təmin etsin.

**18-ci maddə: Vətəndaşlıq**

43. Əlilliyi olan şəxslər qanun qarşısında hüquq subyekti olaraq tanınması hüququnun bir hissəsi kimi ada sahib olmaq və doğulduğu andan qeydiyyata alınmaq kimi hüquqa malikdirlər (18-ci maddənin 2-ci bəndi). İştirakçı dövlətlər əlilliyi olan uşaqların doğulduğu

andan qeydiyyata alınmasını təmin etmək üçün lazımi tədbirlər görməlidirlər. Bu hüquq Uşaq Hüquqları haqqında Konvensiyada nəzərdə tutulmuşdur (maddə 7); lakin, digər uşaqlarla müqayisədə əlilliyi olan uşaqların qeydiyyata alınmaması riski yüksəkdir. Bu, onların nəinki vətəndaşlıqdan məhrum olmasına səbəb olur, həm də tez-tez onları tibb və təhsil imkanlarından məhrum edir və hətta onların ölümü ilə nəticələnə bilər. Onların mövcudluğuna dair heç bir rəsmi qeyd olmadığı üçün ölümləri də tam cəzasız qalır.

**19-cu maddə: Müstəqil həyat tərzi və yerli icmaya cəlb olunma**

44. 12-ci maddədə nəzərdə tutulmuş hüquqların tam icrası üçün əlilliyi olan şəxslərin digərləri ilə bərabər səviyyədə hüquq qabiliyyətini həyata keçirmək məqsədi ilə öz iradə və istəklərini inkişaf və ifadə etmək imkanlarının olması zəruridir. Bu o deməkdir ki, əlilliyi olan şəxslər 19-cu maddədə nəzərdə tutulduğu kimi digərləri ilə bərabər səviyyədə cəmiyyətdə müstəqil yaşamaq, seçim etmək və öz gündəlik həyatlarına nəzarət etmək imkanına malik olmalıdırlar.

45. 12-ci maddənin 3-cü bəndini cəmiyyətdə yaşamaq hüququ (maddə 19) baxımından şərh etsək, bu o deməkdir ki, hüquq qabiliyyətinin həyata keçirilməsində dəstək icma əsaslı yanaşma çərçivəsində həyata keçirilməlidir. İştirakçı dövlətlər etiraf etməlidirlər ki, müxtəlif dəstək növləri haqqında məlumatlılığın artırılması da daxil olmaqla, hüquq qabiliyyətinin həyata keçirilməsində hansı növ dəstəyin lazım olduğunu öyrənmək prosesində icmalar aktiv və tərəfdaş rolunu oynayır. İştirakçı dövlətlər sosial şəbəkələrin və icma dəstəyinin (dostlar, ailə və məktəblər daxil olmaqla) əlilliyi olan şəxslərin dəstəkləyici qərarlarının qəbulu üçün əsas olduğunu qəbul etməlidirlər. Bu isə, Konvensiyada qeyd olunan əlilliyi olan şəxslərin cəmiyyətə tam daxil edilməsi və iştirakına dair müddəalar ilə uyğundur.

46. Əlilliyi olan şəxslərin müəssisələrdə təcridi geniş yayılmış problem olaraq qalmaqdadır və bu Konvensiya ilə təsbit edilmiş bir sıra hüquqları pozur. Bu problem əlilliyi olan şəxslərin hüquq qabiliyyətinin geniş şəkildə inkar edilməsi ilə daha da dərinləşir ki, bu da üçüncü şəxslərin onların müəssisələrə yerləşdirilməsinə razılıq verməsinə imkan verir. Adətən, müəssisələrdə yaşayan şəxslərin hüquq qabiliyyətlərini həyata keçirmək həmin müəssisələrin rəhbərlərinə həvalə olunur. Buna görə də, müəssisə müvafiq şəxs üzərində bütün səlahiyyətlərə malik olur. Konvensiyaya riayət etmək və əlilliyi olan şəxslərin hüquqlarına hörmət etmək üçün deinstitutlaşmaya nail olunmalı, əlilliyi olan şəxslərin hüquq qabiliyyəti bərpa edilməlidir ki, onlar harada və kiminlə yaşayacağını seçmək imkanına malik olsunlar (maddə 19). Şəxsin harada və kiminlə yaşaması seçimi onun hüquq qabiliyyətini həyata keçirərkən dəstək almaq hüququna təsir etməməlidir.

**22-ci maddə: Şəxsi həyatın toxunulmazlığı**

47. Əvəzedici qərar qəbuletmə sistemləri Konvensiyanın 12-ci maddəsi ilə bir araya sığmamaqla yanaşı, əlilliyi olan şəxslərin şəxsi toxunulmazlığı hüququnu da pozur. Belə ki, əvəzedici qərar qəbul edən şəxslər adətən şəxslə bağlı şəxsi və digər məlumatlara çıxış əldə edirlər. Dəstəkləyici qərar qəbuletmə sistemlərinin yaradılması zamanı iştirakçı dövlətlər fəaliyyət qabiliyyətinin həyata keçirilməsinə dəstək verən şəxslərin əlilliyi olan

şəxslərin şəxsi həyatın toxunulmazlığı hüququna tam hörmət etmələrini təmin etməlidirlər.

### 29-cu maddə: Siyasi həyatda iştirak

48. Əlilliyi olan şəxslərin siyasətdə iştirakının və xüsusən də öz səsvermə hüquqlarından məhrum etmək üçün fəaliyyət qabiliyyətinin inkar edilməsi və ya məhdudlaşdırılmasından istifadə edilmişdir. Həyatın bütün sahələrində fəaliyyət qabiliyyətinin digərləri ilə bərabər şəkildə tanınması üçün əlilliyi olan şəxslərin ictimai-siyasi həyatda iştirak etmək qabiliyyətinin tanınması vacibdir (maddə 29). Bu o deməkdir ki, şəxsin qərarvermə qabiliyyəti əlilliyi olan şəxslərin siyasi hüquqlarını, o cümlədən, səsvermə, seçilmək və andlılar heyətinin üzvü olmaq hüququndan istifadə etməkdən məhrum edilməsinə əsas ola bilməz.

49. İştirakçı dövlətlər əlilliyi olan şəxslərin gizli səsvermə zamanı öz seçdikləri dəstəkdən istifadə etmək, ayrı-seçkilik olmadan bütün seçkilərdə və referendumlarda iştirak hüququnu qorumaq və təşviq etmək öhdəliyinə malikdirlər. Komitə, həmçinin iştirakçı dövlətlərə əlilliyi olan şəxslərin ayrı-seçkilik olmadan və digər şəxslər ilə bərabər səviyyədə dövlət işlərinin idarə olunmasında effektiv və hərtərəfli iştirak etmələrinə şəraitin yaradılmasına fəal yardım göstərmək, hüquq qabiliyyətinin həyata keçirilməsi üçün ağlabatan uyğunlaşdırılma ilə təmin edilməsini və dəstək tədbirlərinin göstərilməsini tövsiyə edir.

## V. Milli səviyyədə həyata keçirilmə

50. Yuxarıda göstərilən normativ məzmun və öhdəliklər çərçivəsində iştirakçı dövlətlər Əlilliyi olan şəxslərin Hüquqları haqqında Konvensiyanın 12-ci maddəsinin tam icrasını təmin etmək üçün aşağıdakı addımları atmalıdırlar:

a) Əlilliyi olan şəxsləri digərləri ilə bərabər səviyyədə qanun qarşısında, həyatın bütün sahələrində hüquq və fəaliyyət qabiliyyətinə malik olan şəxs kimi tanımalıdır. Bu, fəaliyyət qabiliyyətini inkar edən, məqsəd və ya təsiri əlilliyi olan şəxslərə qarşı ayrı-seçkilik yaradan əvəzedici qərar qəbuletmə sistemlərinin və mexanizmlərinin ləğvini tələb edir. İştirakçı dövlətlərə hamı üçün bərabər səviyyədə fəaliyyət qabiliyyəti hüququnu qoruyan qanunvericilik aktlarının qəbul edilməsi tövsiyə olunur;

b) Əlilliyi olan şəxslərin hüquq qabiliyyətini həyata keçirmələri üçün geniş miqyaslı dəstək xidmətlərindən istifadə imkanı yaradılmalı və təmin edilməlidir. Bu cür dəstək əlilliyi olan şəxslərin hüquqlarına, iradəsinə və istəklərinə hörmət əsasında göstərilməlidir. Bu dəstək tədbirləri Konvensiyanın 12-ci maddəsinin 3-cü bəndinin icrası üçün iştirakçı dövlətlərin öhdəlikləri ilə bağlı yuxarıda 29-cu bənddə müəyyən edilmiş meyarlara cavab verməlidir;

c) 12-ci maddənin icrasına yönəlmiş qanun, siyasətlərin və digər qərarların hazırlanması, qəbulu və həyata keçirilməsi proseslərində əlilliyi olan şəxslərlə, o cümlədən, əlilliyi olan uşaqlarla onları təmsil edən təşkilatlar vasitəsilə yaxından məsləhətləşmələr aparılmalı və onların fəal iştirakı təmin edilməlidir.

51. Komitə iştirakçı dövlətləri əlilliyi olan şəxsləri hüquq qabiliyyətinin bərabər şəkildə tanınması və habelə onun həyata keçirilməsinə dəstəyin göstərilməsi ilə bağlı tədqiqat və qabaqcıl təcrübələrin aparılmasına və ya maliyyələşdirilməsinə həvəsləndirir.

52. İştirakçı dövlətlər həm rəsmi, həm də qeyri-rəsmi əvəzedici qərarların qəbulu ilə mübarizə üçün səmərəli mexanizmlər hazırlamağa təşviq edilir. Bu məqsədlə Komitə iştirakçı dövlətləri əlilliyi olan şəxslərin öz hüquq qabiliyyətini həyata keçirməsinə dəstək olmaq üçün onlara səmərəli həyat seçimləri etmək və inkişaf etmək imkanını təmin etməyə çağırır. Bura sosial şəbəkələrin qurulması, digərləri ilə bərabər səviyyədə işləmək və yaşamaq imkanları, icmada yaşayış yerini seçmək və təhsilin bütün səviyyələrinə inteqrasiya kimi imkanlar daxildir.

___________________________